***HEYDƏR BABA***

Heydər baba, xalqımın
Ağsaqqalı rəhbəri.
Zəkasından nur alır
Yurdumuzun səhəri

Əməliylə, işiylə
Yadları çaşbaş salar.
Elə bil düşmənlərin
Başına bir daş salar.

Xalqına xor baxanın
Sinəsinə dağ çəkər.
Düşmən onun önündə
Təslim olar, diz çökər.

Heydər baba, xalqımın
Ümid yeri, pənahı
Gözlərindən boylanır
Xalqımızın sabahı.

İnanır həqiqətə,
Haqq məğlub ola bilməz.
Belə rəhbəri olan
Xalq məğlub ola bilməz...

***Rafiq Yusifoğlu***
***Böyük arzuya gedən yol. – B.: "Göyətçin"in kitabxanası, 2000. – S.36.***